# İransayağı obyektivlik

## BÜDCƏ AYIRIMLARI; İŞLƏYƏNLƏRƏ TÖVSİYƏ, İŞLƏMƏYƏNLƏRƏ BOL-BOL VƏSAİT




İran saytlarından biri yeni 1304-cü (21 mart 2025-dən başlanır) il büdcəsindən maliyyələşdirilən 18 xüsusi və əhəmiyyətsiz qurumlara və fəhlə və qulluqçulara ayrılan vəsait haqqında məlumat dərc edib və onu 1400\2021 ci il ildə ayrılan vəsaitlə müqayisə edib

Məlum olub ki,İmam Xomeyni təhsil mərkəzinin büdcəsi-1825%, Elmiyyə hövzəsinin (dini təhsil müəssisələri sistemi) Xidmət mərkəzi-1300%, İslam Təbliğatı Təşkiatı-1285% R\tv -1246% artırılmışdır.

Fəhlələrin maaşları cəmi 70%, dövlət işçilərinin\qulluqçuların maaşaları 185% artırılır.

Sayt soruşur ki, necə olur ki, xalqa qənaət etmək və müqavimət tövsiyyə olunur, amma qeyd edilən qurumlar onlara ayrılan büdcənin azlığından şikayət edirlər. Sayt həmçinin qeyd edir ki, həmin qurumlardan bəziləri cəmiyyətdə gərginlik yaratmaqla (məsələn Xeyir işlərə… təşviq qəragahı) və prezident hökumətinə qarşı təbliğatla (R\tv) məşğuldurlar. Elələri də var ki, (məsələn İran-İslam inkişaf

modeli mərkəzi) adları yalnız büdcə ayrımaları zamanı və üzvləri maaş alanda  məlum olur. Bir çoxunun  varlığı və ya yoxluğunu xalq heç cür hiss etmir, hərçənd ümumi  maliyyə resurslarından haqsız yerə pay alırlar.

Sayt  “Xomeyni irsini tərtib və nəşr edən mərkəz”in  hələ də fəaliyyət göstərdiyini qeyd edərək təəccübünü gizlətmir ki, doğurdanmı, həmin mərkəz mövcud olduğu  37 il (1988-2025) ərzində rejimin banisinin əsərlərinin çapını başa çatdırmayıb.

Əlavə edək ki, həmin 18 qurum sırasında həmçinin Sədi fondu, Ali Mədəni İnqilab Şurasının katibliyi,İslam Təbliğatı Koordinasiya Şurası, Namaz qəragahı, R\tv-yə Nəzarət qurumu,Vəqflər  təşkilatı və s.  adları qeyd edilir.



***Vidadi Mustafayev***